**Elşən Hüseynov**
*– Defektoloq-Loqoped –*

# AUTİZM ÜÇÜN OYUN RƏHBƏRİ

## *10 praktiki oyun texnikası*

qanun nəşriyyatı

Autizm haqqında hər yerdən məlumat almaq olar. Lakin bunların hamısı doğru olmaya bilər – xüsusilə dildə-ağızda gəzən yanlış fikirlər varsa. Bunun səbəbi bir az mütəxəssislərin səriştəsizliyində, bir az da valideynlərin savadsızlığından yararlanıb onları manipulyasiya etməsindədir. Nəticədə autistik övladı olan valideynlər vəziyyətdən baş çıxara bilmirlər. Bəs nə etməli? Autizm nə deməkdir? Ona necə tərif verməli? Onu necə dəyərləndirməli? Kitab bu suallara cavab verir, autizmə müasir dəyərlərlə yanaşır, valideynlik vəzifəsini və autizmdən sonrakı həyat tərzini izah edir.

Elşən Hüseynov
– Defektoloq-Loqoped –

AUTİZM ÜÇÜN OYUN RƏHBƏRİ
10 praktiki oyun texnikası

Bakı, Qanun Nəşriyyatı, 2024, 80 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 18.03.2024

Tərtibçilər: ELCHIN PRESCHOOL tədris və erkən müdaxilə mərkəzinin rəhbəri – Əzizə Xəlilova
Psixoloq – Ülkər Rüstəmova

Naşir: Şahbaz Xuduoğlu
Redaktor: Gülüstan Bağırova
Korrektor: Aygül Yelmarlı
Mətn dizaynı: Xəyalə Şirinli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-923-4

© Qanun Nəşriyyatı, 2024
© Elşən Hüseynov, 2024

# I BÖLMƏ

## AUTİZM HAQQINDA DOĞRU BİLGİ



## MÖVZU 1

# Autizm nə deyil ?

Müasir dövrdə autizm haqqında məlumatları müxtəlif mənbələrdən əldə etmək olar. İnternetdən, mütəxəssislərin müsahibələrindən, bəzən isə kitablardan. Lakin bu o demək deyil ki, verilən məlumatların hamısı doğrudur. Xüsusilə, autizm haqqında cəmiyyətdə ağızdan-ağıza yayılmış yanlış fikirlər var. Bunun səbəbi isə bu sahədə çalışan səriştəsi mütəxəssislərin təsdiqlənməmiş nəzəriyyələri terminlərlə bəzəyərək, bir az da valideynlərin bilgisizliyindən istifadə edərək onları manipulyasiya etməsidir. Nəticədə autistik övladı olan valideynlər belə autizmin nə olduğunu qarşı tərəfə tam çatdıra bilmir. Amma atalar nə deyib? Bilməmək ayıb deyil, öyrənməmək ayıbdır. İndi əlinizə əla fürsət düşüb. Öyrənməyin əsl vaxtıdır.

**Əslində autizm nə deməkdir? Ona necə tərif verməli?**

Öncə autizmin tərifi üçün əsas, vacib mənbələrə baxmalıyıq. **DSM V və XBT 11.** Nədir bunlar? Bunlar diaq-

nostika üçün ən təməl kitablardır. Bu kitablar bütün dünyada keçərlidir. Beynəlxalq aləmdə psixiatrlar yalnız bu iki kitab əsasında diaqnoz qoya bilər.

Psixiatrlar üçün çox önəmli yeri olan **DSM V** (intellektual pozulmaların diaqnostik və statistik təlimat kitabı) kitabında autizm haqqında nə yazılıb?

**DSM V-**ə görə Autizm Spektr Pozuntusu sosial münasibətlərdə davamlı çatışmazlıqlar, təkrarlanan davranışlar və məhdud maraqları özündə əks etdirir. Bunların mənası nədir? Sosial münasibətlər bizim digər insanlarla olan əlaqəmizi, ünsiyyətimizi və rəftarımızı ifadə edir. Demək, autizm bu əlaqənin yaranmasına mane olur. Fərdi bütün insanlardan soyudur, uzaqlaşdırır. Digər insanları kəşf etməyə, onları öz dünyasına dəvət etməyə imkan vermir. Təkrarlanan davranışlar fərdin daim bir hərəkəti dəfələrlə, sanki öz dünyasında rahatlanırmış kimi sərbəst təkrar etməsidir. Fırlanması, əşyalara diqqətlə yaxından baxması, dayanmadan hoppanması, fərqli-fərqli səslər çıxarması və sair. Dəyişməyən maraqlar, eyni istəklər, məhdud hərəkətlər...

Bunlar hamısı kənardan qəribə görünür, elə deyilmi? Çünki tam olaraq anlaşılmır. Görməlisən, müşahidə etməlisən və ya bu həyatın bir parçası olmalısan. Doğrudur, tək müşahidə ilə iş bitmir. Onu anlamaq üçün araşdırmaq lazımdır. Hərəkətə gətirərək onun mexanizmlərini, xüsusiyyətlərini kəşf etmək lazımdır. Necə inkişaf etdiyini yoxlamaq üçün təlim metodlarının hamısından istifadə etməliyik. Lakin bəziləri bu yorucu prosesləri həyata ke-

çirmək istəmir. Qısa, lakonik və hazır cavablar almaq insanı rahatlaşdırır. Lakin həmin cavablar çox vaxt əsassız, təcrübədən keçməyən “nəzəriyyələr” olur.

Bu qısa cavablardan biri də **“Autizm bir xəstəlikdir və onu sağaltmaq mümkündür”** olacaq. Autizmin bir xəstəlik olub-olmadığı təyin etmək mürəkkəb məsələdir. Əslində əksər psixoloji problemlərin “xəstəlik” adlandırılması gözəl müzakirə mövzusudur. Çünki xəstəliklərin səbəbi, tibbi gedişatı və tibbi müalicəsi var. Lakin biz autizmin sadəcə əlamətlərini bilirik. Onun səbəbi, nədən və necə yarandığı məlum deyil. Patogenezi, yəni orqanizmin hansı hissəsində necə formalaşdığı və necə inkişaf etdiyi məlum deyil. Heç bir dərman müalicəsi isə autizmin əlamətlərini tamamilə aradan qaldıra bilmir.

Bu halda xəstəlik sözü autizmin yanında sadə qalır, çünki autizmi ifadə edərkən spektr sözündən istifadə edirik. Spektr fizikada işığın qırılmasına və bir işıqdan çıxan müxtəlif rənglərin əks olunmasına deyilir. Bu autizmin çeşidliliyini göstərən əsas termindir. Bu nəinki autizmin, eyni zamanda bütün fərdlərin individual xüsusiyyətlərinin cəmini özündə əks etdirən önəmli kəlmədir. Autizm bir xəstəlik kimi məhdudlaşa bilməz, o varoluşun, təbiətdəki biomüxtəlifliyin sadəcə bir növüdür.

Təbii ki, bir sual yaranır. **Autizmə xəstəlik kimi yanaşmaq doğru deyilsə, niyə həkimlər tərəfindən tibbi müayinə olunur? Niyə diaqnoza ehtiyacımız var?**

Bunun başlıca səbəbi əlillik statusuna görədir. Autistik fərdlər gündəlik yaşamda, özəlliklə təhsildə xüsusi qayğıya və yanaşmaya ehtiyac duyurlar. Bunu təsdiqləmək üçün isə

həkimlərin rəyi açar rol oynayır. Əks halda nə valideynlər, nə də mütəxəsisslər onun bir fərqlilik olduğunu sübut edə bilməz.

Bəli, psixiatrlar təkcə diaqnoz qoymur, eyni zamanda dərman müalicəsi yazırlar. Amma bu onların tam sağalması üçün tərtib olunmuş medikomentoz terapiya deyil. Sadəcə olaraq, davranışları idarə etmək üçün stimullaşdırıcı dərmanlar verərək ətrafa daha çox adaptasiya olmasına, diqqətini inkişaf etdirməyə və sinir impulslarını tənzimləməyə şərait yaradır.

Xəstəlik kimi sadə məfhumla izah edilən autizmin əslində müasir dünyanın sosial münasibətlərini özündə əks etdirən bir müxtəliflik olduğunu dərk etməliyik. Bu gün dünyanın hər yerində minlərlə övladın bu kimi əlamətlərə sahib olması səthi yanaşılacaq məsələ deyil. Müasir cəmiyyətdə rast gəldiyimiz **“özünəqapanıqlıq”, “asossiallıq”** kimi anlayışların əslində autizmlə necə uyuşduğunu anlamaq çox asandır. Çünki son zamanlar dünya xalqlarının əksər hissəsində gündəlik sosiallaşma, ünsiyyət, dostluq ehtiyacları tam qarşılanmır. Getdikcə insanlar öz sərhədlərini daha da məhdudlaşdırır, ünsiyyətə girməkdən qaçırlar. Sosial medianın təsiri ilə daha da cəmiyyətin gerçəklik qavramından uzaqlaşırlar. Artıq həyat çoxları üçün telefona uzanan əl məsafəsi qədərdir. Ən çox narahatlıq yaradan məsələ isə gün keçdikcə bunun qarşısını almağın daha da çətinləşməsidir.

Hal-hazırda autizm haqqında təməl məlumat almaq çox sadədir. Bir insan olaraq hər kəsin bu haqda məlumata sahib olması olduqca vacibdir. Cəmiyyətin hər bir üzvü